







Abşeron yarımadası və xaricində

# PEŞƏ TƏHSİLİ

AHK Deutsch-Aserbaidschanische Auslandshandelskammer
Alman-Azərbaycan Xarici Ticarət Palatası

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
PEŞƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT AGENTLİYİ

Business Scouts for Development

# NƏŞR

**Nəşr edən**
Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan)
Tobias Baumann, İcraçı Direktor
Winter Park Plaza, Rəsul Rza küç. 75
AZ 1014 Bakı, Azərbaycan

**Əməkdaş**
Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi
Ə. Orucəliyev küç. 61
AZ 1033 Bakı, Azərbaycan

**Redaksiya heyəti**
Dr. Magnus Müller
Gülüş Cəfərquluzadə
Nigar İsmayılova-Əsgərova

**Dizayn tərtibatı**
Vasif Kərimli

**Tərcümə və redaktə**
"ING" MMC

**Şəkillərin mənbələri**
Fərhad Sultanov (Fotoqraf)
Sergii Molchenko (Shutterstock)
Pexels
www.openstreetmap.org

**Əlavə məlumat üçün**
Dr. Magnus Müller
Peşə Təhsili üzrə rəhbər, AHK Azərbaycan
magnus.mueller@ahk-baku.de

Supported by:
Federal Ministry for Economic Affairs and Energy
on the basis of a decision by the German Bundestag

Business Scouts for Development
alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

CIM (Beynəlxalq Miqrasiya və İnkişaf Mərkəzi) tərəfindən təyin olunan, Federativ İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) "Business Scouts for Development" İnkişaf Proqramı tərəfindən dəstəklənən inteqrasiya olunmuş mütəxəssis

Bu nəşr Alman-Azərbaycan Xarici Ticarət Palatası tərəfindən Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə birlikdə nəşr edilib. Bu nəşrin heç bir hissəsi naşirin əvvəlcədən yazılı icazəsi olmadan çoxaldıla, yayıla, hər hansı bir formada və ya hər hansı bir vasitə ilə ötürülə bilməz. Bu nəşrin içindəki məlumatlar etibarlı hesab olunan mənbələrdən əldə edilib və tərtib olunub. Sənədin hazırlanmasında hər cür tədbir alınmış olsa da, naşir təqdim olunan məlumatların dəqiqliyinə, tamlığı və düzgünlüyünə görə heç bir məsuliyyət daşımır və ya zəmanət vermir.

© Müəllif hüquqları 2021 AHK Azərbaycan. Bütün hüquqlar qorunur.

# MÜNDƏRİCAT


Ön söz ........ 01
Azərbaycanda keçid dövrünü yaşayan PTT ........ 03
Peşə Təhsili üzrə Dövlət Agentliyi ........ 05
Alman-Azərbaycan Xarici Ticarət Palatası ........ 08
Şirkət yanaşması ilə Almaniyada ikili (dual) təhsil ........ 10
Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 11
Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 15
XƏRİTƏ: Abşeron yarımadası və xaricində peşə təhsili ........ 17
İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 19
Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 21
Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 22
Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 23
Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 25
Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 26
Profi-Resurs Peşə Tədris Mərkəzi ........ 27
Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ........ 28
"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində Peşə Təhsil Mərkəzi ........ 29
Abşeron-Ceyranbatan Peşə Liseyi ........ 29
Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ........ 31
İsmayıllı Peşə Tədris Mərkəzi ........ 32
Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi ........ 33
Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi ........ 34
Bərdə Peşə Liseyi ........ 35



# TOBIAS BAUMANN

**İcraçı Direktor**
**AHK Azərbaycan**

**Hörmətli oxucular,**

Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində hazırlanan “Abşeron yarımadası və xaricində Peşə Təhsili” adlı yeni nəşrimizi sizə təqdim etməkdən məmnunluq hissi duyuruq.

İkili (dual) peşə təhsil sistemi Almaniyanın iqtisadi uğurunun əsas amilidir. Şirkətlər peşə təhsil sistemində iştirak edir, gənclərə peşəkar karyera və fərdi inkişaf imkanları yaratmaqda məsuliyyət daşıyırlar. Təlim verən şirkətlər Almaniyada cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Şirkətlərin təlim verməsi müştəriləri və tərəfdaşları üçün işçilərinin ixtisasına görə məsuliyyət daşıdıqlarının göstəricisidir. Bu məhsul və xidmətlərin yüksək keyfiyyətinə və etibarlılığına da təminat verir.

Bu nəşrlə biz Azərbaycanda fəaliyyət göstərən müəssisələrə xülasə şəklində mövcud imkanları təqdim etmək istəyirik: Müxtəlif peşələrə yiyələnmiş bacarıqlı məzunların işə qəbulu, təcrübə proqramı vasitəsi ilə peşə təhsili proseslərində iştirak etmək imkanı, imtahanlar, praktiki təlim və tədris proqramlarının hazırlanması və ya peşəkar-inkişaf təlimləri ilə əlaqədar kadrların ixtisasartırması.

Fürsətdən istifadə edərək, şirkət nümayəndələrinə və peşə təhsil mərkəzlərinə dərin təşəkkürümü bildirmək istərdim.

Səmimi qəlbdən ümid edirik ki, bu nəşr məlumatlılığın artırılmasına töhfə verəcək və peşə təhsil sisteminin yaratdığı imkanlardan istifadə edərkən insan resursları mütəxəssislərinə xidmət göstərəcəkdir.

Sizin Azərbaycandakı tərəfdaşınız olmaqdan və biznesinizin inkişafına və uğurlarınıza dəstək olmaqdan məmnunluq hissi duyuruq!





## PƏRVİZ YUSİFOV

**Direktor**
**Dövlət Agentliyi**

**Hörmətli oxucular,**

Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) ilə əməkdaşlıq çərçivəsində hazırlanmış “Abşeron yarımadasında və xaricində Peşə Təhsili” adlı yeni nəşrimizi sizə təqdim etməkdən böyük məmnunluq hissi duyuruq.

Bu tərəfdaşlıq bizim nail olmağa çalışdığımız hədəfin bir nümunəsidir: Peşə təhsili və təlimi ilə özəl sektor arasındakı əməkdaşlıq, Azərbaycan Respublikasının peşə təhsili ilə bağlı yol xəritəsində göstərildiyi kimi, Azərbaycanda davam edən islahatların həyata keçirilməsinin mühüm bir hissəsidir. Əmək bazarının tələb etdiyi kimi hər iki tərəfin də məzunları ixtisaslaşdırmaq məqsədilə peşə təhsili müəssisələrinin iştirakından faydalandığı aydın şəkildə görünür.

Hazırda həm təhsil, həm də iqtisadiyyat üzrə çətin günləri yaşayırıq. Məktəblərin bağlı olması səbəbilə virtual təhsilə keçid Azərbaycanda çox mühüm bir addım olmuşdur. Buna baxmayaraq, onlayn təhsildə, xüsusilə peşə təhsili sahəsində məhdudiyyətləri görmək olur.

Tələbələrimizin laboratoriya dərslərində təcrübə yolu ilə praktik təcrübə qazanmasına imkan verərək “əvvəlki normal vəziyyətə” qayıtmağını səbirsizliklə gözləyirik. Müəssisələrdə təcrübə qazanmaq imkanı qarşılıqlı əməkdaşlıq zamanı ilkin əsas addımdır: Bu nəşr seçilmiş peşə təhsil mərkəzlərinin təhsil proqramları haqqında oxucunu məlumatlandırmaq məqsədi daşıyır.

Fürsətdən istifadə edərək bu nəşrə töhfəsini verənlərə, tərəfdaşımız AHK Azərbaycana, şirkətlərin və peşə təhsil mərkəzlərinin təmsilçilərinə dəyərli dəstəklərinə görə dərin təşəkkürümüzü bildirmək istəyirik.



# Azərbaycanda keçid dövrünü yaşayan PTT: nailiyyətlər və gələcək imkanlar[1]

Azərbaycanın milli inkişaf strategiyası onun neft-qaz gəlirlərindən asılılığının azaldılmasına və şaxələndirilmiş insan kapitalına, fiziki infrastruktura və daha dayanıqlı müəssisələrə qoyulan investisiyalar hesabına kənar təsirlərə davamlılığının gücləndirilməsinə yönəlmişdir. Bu mənada insan kapitalı çiçəklənən, innovativ və inklüziv cəmiyyətin inkişafında həlledici amilə çevrilir, PTT-nin oynadığı rol isə həmişəkindən daha mühümdür.

Ölkə əhalisinin sayında gənclərin payı yüksəkdir ki, bu da özünü əmək qabiliyyətli əhalinin payının artmasında göstərir. 2017-2025-ci illərdə hər il əmək bazarına 125-200 nəfərin daxil olacağı gözlənilir ki, bu da 1 il ərzində yaradılan iş yerlərinin sayından təxminən 2,5 dəfə çoxdur.

Vətəndaşların ixtisaslaşması və müasir bacarıqlara nail olması Azərbaycanın iqtisadi dəyişikliklərlə bağlı gündəliyində getdikcə daha həlledici rol oynayır. Hökumət insan kapitalının inkişafını prioritet müəyyən etmişdir. Vətəndaşların yeni bilik və bacarıqlarının inkişaf etdirilməsi gündəlikdə mühüm yer tutur. Əsas diqqət həm ibtidai (ilk), həm də davamlı təhsil və təlimin bütün səviyyələrində keyfiyyət və inklüzivlik üzrə siyasətin davamlı cavab tədbirləri sayəsində struktur və sistemli dəyişikliklərin edilməsinə yönəlmişdir.



### PTT-nin strateji və normativ bazasının yenilənməsi

2016-cı ilin dekabrında qəbul edilmiş Azərbaycanda PTT üzrə Strateji Yol Xəritəsi (2016-2025) PTT sektoru üzrə 2016-2020-ci illər üçün Strategiya və Fəaliyyət Planı, 2025-ci il üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir[2].

Sistemin təkmilləşdirilməsinə istiqamətləndirilmiş kompleks struktur PTT sahəsində radikal nailiyyətlərin təmin edilməsi vəzifəsini qarşıya qoyur.

PTT-nin yeni müsbət imicinin yaradılması; təkmilləşdirilmiş dövlət-özəl sektor tərəfdaşlığı (DÖST) əsasında PTT təminatçılarının idarə edilməsi strukturunun yaradılması; dövlət PTT təminatçılarının rasionallaşdırılmış və optimallaşdırılmış şəbəkəsinin yaradılması; PTT sisteminin özəl sektor üçün cəlbediciliyinin artırılması; PTT proqramlarının həyata keçirilməsi üçün ən müasir texnologiyalarla təchiz ediləcək 10 PTT Mərkəzinin yaradılması və təsis edilməsi PTT-nin inkişaf gündəliyində mühüm prioritet kimi qoyulmuşdur.

2018-ci ilin aprelində ölkə tarixində ilk dəfə olaraq peşə təhsili haqqında qanun qəbul edilmişdir. Qanun peşə təhsili sahəsində dövlət siyasətinin prinsiplərini müəyyən edir və PTT sistemi üçün hüquqi çərçivə təmin edir. Həmçinin PTT-nin 3 səviyyəsini (ilk, texniki və ali peşə təhsili) təqdim edir[3].

### İnfrastruktura investisiyalar və PTT proqramlarının yenilənməsi

PTT üzrə Yol Xəritəsi bütün ölkədə əmək bazarında yüksək tələbat olan prioritet peşələr üzrə kadrların hazırlanmasını təmin edəcək PTT İxtisasartırma Mərkəzlərinin yaradılmasını nəzərdə tutur. Bu Mərkəzlər müasir infrastruktura, maddi-texniki və tədris bazalarına, habelə dövlət-özəl sektor tərəfdaşlığına (DÖST) əsaslanan idarəetmə strukturuna malik olacaqdır. Ehtimal olunur ki, modernləşdirilmiş PTT infrastrukturu PTT-nin imicini yaxşılaşdıracaq və onu təhsilalanlar və valideynlər üçün daha cəlbedici edəcəkdir.

"Azərbaycan Respublikasının ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" (AzMKÇ) milli kvalifikasiyaların sistemləşdirilməsi vasitəsi kimi Ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının və "Ömür boyu təhsil üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi"nin (AKÇ) meyarları ilə birgə işlənib hazırlanmışdır. O, Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli Qərarı ilə qəbul edilmişdir. AzMKÇ-nin 2-5-ci səviyyələri PTT müəssisələrində tədris edilir.

[1] Bu məqalə "İnsan kapitalının inkişafı Siyasəti", Avropa Təlim Fondu (ETF), 2020 əsasında hazırlanmışdır. Avropa Təlim Fondunun (ETF) qiymətləndirməsi ölkədə insan kapitalının inkişafı ilə bağlı problemlərin və PTT siyasətinin cavab tədbirlərinin ömür boyu təhsil perspektivində xarici, perspektiv təhlilini təmin edir. Burada insan kapitalının inkişafına və istifadəsinə mane olan təhsil və peşə hazırlığı siyasəti və təcrübəsi ilə bağlı problemlər müəyyən edilir. Burada adıçəkilən problemlər təhlil edilir və onların mümkün həll yolları ilə bağlı tövsiyələr verilir: //www.etf.europa.eu/en/publications-and-resources/publications/trp-assessment-reports/azerbaijan-2020https
[2] "Azərbaycanda PTT üzrə Strateji Yol Xəritəsi" N.N., 2016: https://monitoring.az/assets/upload/files/6381dda5389fb17755bbb732a9c7d708.pdf
[3] "Turin Prosesi 2019 üzrə milli hesabat" Avropa Təlim Fondunun, 2019: https://openspace.etf.europa.eu/sites/default/files/2020-12/TRPreport_2019_Azerbaijan_EN.pdf

Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) əvvəlki PTT proqramlarında dəyişikliklərin təşəbbüskarı olmuşdur. 2018-ci ildən bəri müasir PTT proqramlarına keçid həyata keçirilir. Onlar peşə standartları, kvalifikasiya standartları və milli kvalifikasiyalar çərçivəsi nəzərə alınmaqla işlənib hazırlanmalıdır. Bu proses tədris planları üzrə mütəxəssislər, müəllimlər, sahə üzrə ekspertlər və işəgötürənlərin daxil olduğu işçi qrupunun yaradılması ilə başlayır. Yekun proqram hazır olduqda işçi qrupu və işəgötürən təşkilat tərəfindən təsdiq edilir. Sonda isə PTT proqramı təsdiqlənməsi üçün PTDA-ya təqdim edilir.

Peşə Təhsili üzrə Strateji Yol Xəritəsinə əsasən, pedaqoji kadrların fəaliyyətinin monitorinqi planlaşdırılır[4]. Səmərəlilik Təhsil Nazirliyinin (TN) müəyyən etdiyi meyarlar əsasında vaxtaşırı qiymətləndiriləcək. PTT sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər görülür. Müəllimlərin maaşı iki dəfə artırılıb.

### Hər kəsin PTT-yə çıxışının təmin və ona cəlb olunmasının təşviq edilməsi

Cəlb olunmanın genişləndirilməsi və peşə təhsilinə çıxışın təmin edilməsi məqsədilə açıq qapı tədbirləri, əmək yarmarkaları, müsabiqələr, habelə iş yerində öyrənmə və təcrübə keçmə imkanları təqdim edilir. 2018-ci ildən bəri bütün ölkə üzrə ASAN xidmət mərkəzləri vasitəsilə PTT müəssisələrinə qəbul prosesi təşkil edilir. 2018-2019-cu tədris ilində elektron müraciət sistemi vasitəsilə PTT müəssisələrinə 16 000-dən çox ərizə daxil olmuşdur.

TN dərsliklərin[5] və digər materialların[6] elektron versiyalarını əhatə edən rəqəmsal tədris materialları platforması da təqdim etmişdir. Həmçinin onlayn resurslardan ibarət tədris planlarının idarə edilməsi üzrə informasiya sistemi də yaradılmışdır. PTT müəssisələri bütün peşələr üzrə tədris proqramları üçün İKT modulu da tətbiq ediblər. Bundan əlavə, Hökumət rəqəmsal transformasiyanı asanlaşdırmaq məqsədilə biznes müəssisələrinin iştirakı ilə texnologiya tədrisinin modernizasiyasını prioritet olaraq müəyyən etmişdir. 2018-ci ilin noyabrından başlayaraq, PTT üzrə tədris materialları da hər kəs üçün əlçatan olan platformaya daxil edilmişdir[7].

### İşəgötürənlərlə əməkdaşlığı gücləndirmək üçün direktiv xarakterli tədbirlər

PTT üzrə Yol Xəritəsində təsdiq edilir ki, işəgötürənlərlə tərəfdaşlıq Azərbaycanın peşə təhsili sisteminin ən yüksək səviyyəyə çatdırılması üçün ən vacib şərtlərdən biridir. Yol Xəritəsində 2025-ci ilədək işəgötürənlərin PTT sisteminə tam (öyrədici tədris proqramlarından maliyyələşməyə qədər) inteqrasiya olunması nəzərdə tutulur. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ)) apardığı son araşdırmanın nəticələrinə görə, Azərbaycanda iş yerində öyrənmənin (work based learning (WBL) təşviqi üçün böyük potensial mövcuddur. Xüsusilə də məşğulluq dərəcəsinin yüksək olduğu sektorlarda, məsələn, turizm və kənd təsərrüfatı sektorlarında əmək bazarının tələbatı və işçi qüvvəsinin mövcud ixtisaslaşması arasındakı fərqin azaldılmasına kömək etmək üçün[8].

Son bir neçə ildə təhsil sistemi ilə özəl sektor arasında daha sıx əməkdaşlığın qurulmasında əhəmiyyətli dərəcədə irəliləyişə nail olunmuşdur. TN bir neçə iri müəssisə ilə (məsələn, "Azərsun Holdinq" və "Gilan Holdinq") əməkdaşlıq memorandumu imzalamışdır. PTDA agentliklər, məktəblər və özəl şirkətlər arasında 100-dən çox əməkdaşlıq müqaviləsinin təşəbbüskarı olmuşdur. Məktəblər və müəssisələr arasında əməkdaşlıq qurulmaqda və inkişaf etməkdədir.

### Maliyyə mexanizmlərinin dəyişdirilməsi üçün direktiv xarakterli tədbirlər

PTT üzrə Yol Xəritəsi PTT müəssisələrinin və müəllim heyətinin fəaliyyətinin səmərəlilik əsasında qiymətləndirilməsini (mükafatlandırılmasını) əhatə edən nəticə əsaslı davamlı maliyyə sisteminin yaradılmasını qarşıya məqsəd qoyur. 2019-cu ilin fevralında Nazirlər Kabineti PTT müəssisələrinin onların avtonomluğunun artırılmasına istiqamətlənmiş yeni əsasnamələrini təsdiq edib. Ayrı-ayrı PTT müəssisələrində həmin müəssisələrin publik hüquqi şəxslərə çevrilməsi prosesi davam edir.

2020-ci ilin avqustunda PTT İnkişaf Fondu yaradılıb. Fondun səlahiyyətlərinə peşə təhsilinin inkişafına maliyyə dəstəyinin göstərilməsi, gəlirlərin peşə təhsili müəssisələrinin resurs bazasının möhkəmləndirilməsinə yönəldilməsi, dövlət siyasətinin həyata keçirilməsinə dəstək verilməsi, peşə təhsili müəssisələrində çalışan müəllimlərin maddi və sosial rifahının yaxşılaşdırılması üzrə tədbirlərin görülməsi və onların müvafiq meyarlar əsasında mükafatlandırılması və s. daxildir.

Margareta Nikolovska
Avropa Təlim Fondu

[4] ] "Azərbaycanda PTT üzrə Strateji Yol Xəritəsi" N.N., 2016: https://monitoring.az/assets/upload/files/6381dda5389fb17755bbb732a9c7d708.pdf
[5] "Elektrik dərslik portalı", Azərbaycan Respublikası Təhsil Nazirliy, 2021: https://www.e-derslik.edu.az/site/index.php[6] https://video.edu.az/
[6] "Təhsil Nazirliyinin teledərsləri", Edumedia, 2019: https://video.edu.az/
[7] "Təhsil resurslarının idarəedilməsi - informasiya sistemi", Azərbaycan Respublikası Təhsil Nazirliy, 2021: https://www.trims.edu.az/site/index.php
[8] "Ermənistan, Azərbaycan və Gürcüstanda gələcəyə yönəlmiş ikili peşə kvalifikasiyası Azərbaycanda ikili peşə təhsili və təhsili potensialı", GIZ, 2016: https://psd-tvet.de/wp/wp-content/uploads/AZ_SFF-Study_Dual-Vocational-Education-and-Training_Azerbaijan.docx.pdf

# Peşə Təhsili üzrə Dövlət Agentliyi



**PƏRVİZ YUSİFOV**

**Direktor**
**Dövlət Agentliyi**

+994 12 599 12 77
www.vet.edu.gov.az

Müsahibə

Hazırda cənab Yusifov Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktorudur. O, 2019-cu ildə bu vəzifəyə təyin edilib və o tarixdən etibarən Azərbaycanda peşə təhsili və tədrisi sahəsində önəmli rolu var.

**Peşə təhsili və tədrisi hökumət üçün prioritet fəaliyyət sahəsidir və bu məqsədlə 2016-cı ildə sözügedən sahə üzrə kompleks islahatlar prosesinə start verilmişdir. Buraya həmçinin Peşə Təhsili üzrə Dövlət Agentliyinin təsis olunması da daxildir. Agentliyin strukturunun və qarşısında duran məsələlərin nədən ibarət olduğu barədə məlumat verə bilərsinizmi?**

Qeyd etdiyiniz kimi, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" nə əsaslanaraq, 20.04.2016-cı il tarixində Prezidentin 869 saylı Fərmanı ilə Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır. Agentlik peşə təhsili və təlimi sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edir və əlaqələndirir, eyni zamanda Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsil müəssisələrinin fəaliyyətini təşkil edir. Peşə təhsili müəsissələrinə istinad edərkən biz tarixən ilk-peşə təhsil müəssisələri adlanan təhsil müəssisələrini nəzərdə tuturuq. Hal-hazırda ölkə üzrə 99 peşə təhsil müəssisəsi fəaliyyət göstərir ki, bunlardan 96-sı Təhsil Nazirliyi tərkibində (9 cəzaçəkmə müəssisəsi və 6 Qarabağ zonasında yerləşən və hələlik fəaliyyəti dondurulmuş müəssisə) 2 digər dövlət qurumları nəzdində 1 özəl peşə təhsil müəssisəsi mövcuddur. Ümumilikdə bu müəssisələrdə 120 təhsil proqramı üzrə 22.300 tələbə tədris alır.

Agentliyin fəaliyyəti 3 əsas fəaliyyət və 2 inzibati şöbə tərəfindən təmin olunur. Əsas fəaliyyətə cavabdeh şöbələr, peşə təhsilinin siyasəti, işəgötürənlərlə işin təşkil olunması və müəssisə idarəetməsinə cavabdehdirlər. Sektorun idarə olunması üçün vacib olan aidiyyatı ixtisaslar üzrə məzmunun hazırlanması, maliyyələşdirmə və onun planlaşdırılması, tikinti-təhcizat işləri və bir sıra inzibati fəaliyyətlər Təhsil Nazirliyinin aidiyyatı struktur bölmələri tərəfindən icra olunur.

Agentliyin əsas prioritetləri, Strateji Yol Xəritəsində və Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasında təqdim edilmişdir. Bununla yanaşı 2020-ci ilin noyabr ayında peşə təhsilinin inkişafı ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən 1 illik fəaliyyət planı imzalanmışdır. Bu fəaliyyət planın əsas məqsədi 1 il ərzində bir neçə prioritet istiqamətlərdə konkret nəticələrin əldə olunmasıdır. Bunlar aşağıdakılardır:

1. Peşə təhsili və təlimi sahəsində pilot layihələrin icra edilməsi
2. Peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün əlavə maliyyə  maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi
3. Yüksək texniki peşə təhsilinin əhatəsinin genişləndirilməsi
4. "World Skills" formatında peşə bacarıqları yarışmalarının təşkili
5. Qabaqcıl peşə təhsil müəssisələrinin inkişaf etidirilməsi

**Agentlik müəssisələr üçün hansı konkret təklifləri irəli sürür və əsas əlaqələndirici şəxslər kimlərdir?**

Peşə təhsilinin uğurlu olması üçün işəgötürənlərlə əməkdaşlıq şərtdir. Məhz o səbəbdən hazırda Agentliyin bu istiqamətdə fəaliyyət göstərən müvafiq şöbəsi mövcuddur və özəl sektorda uzun illər çalışmış Agentliyin komandasına yeni qoşulmuş direktor müavini Ceyhun Kərəmovun birbaşa vəzifəsi bu sahədə əməkdaşlığı gücləndirməkdir. İşəgötürənlərin kadr hazırlığı prosesinə cəlb olunması üçün hal-hazırda fərqli yollar tətbiq edirik. Yeni yanaşmaları pilot olaraq tətbiq edirik ki, müxtəlif işəgötürənlər peşə təhsilindən faydalana bilsin. Təhsil prosesinin bütün mərhələlərində işəgötürənlərin iştirakını görürük və istəyirik. Buraya tədris materiallarının hazırlanması, təhsilalanların təcrübə proqramlarına cəlb edilməsi, tədrisin təşkili üçün mühəndis-pedaqoji heyətin cəlb edilməsi, təhsilin yekunu olaraq qiymətləndirmə prosesinin təşkilinə rəhbərlik və yekun olaraq məzunların işlə təminatı məsələlərini qeyd etmək olar. Düşünürük ki, işəgötürənlərin bu sahədə Agentlik və peşə təhsil müəssisələri ilə yaxından çalışa bilmə imkanı sonda məhz onların tələblərinə uyğun kadrların hazırlanmasına zəmin yaradır. Bu zaman, həm uzun müddətli həmçinin qısa müddətli tədris imkanları təklif olunur. Əsas odur ki, işəgötürən özünü bu prosesin bir hissəsi hiss etsin və bizimlə aidiyyatı sektor üçün kadrların hazırlanmasında əməkdaşlıq etsin.

Konkret nümunələr olaraq, bir neçə yeni təşəbbüsümüzü qeyd etmək istərdim. Bunlar "Bacarıqlı ol" Usta yanında öyrənmə yanaşmasıdır ki, bu təlimlər zamanı nəzəriyyə (40%) peşə təhsil müəssisəsində, istehsalat təcrübəsi isə (60%) işəgötürən tərəfindən edilir. Bu layihə çərçivəsində ilk təlim proqramını bu ildən etibarən "Bazarstore" ilə başlamışıq.

Agentliyin təkliflərindən biri intensiv qısa-müddətli təlimlər vasitəsilə əmək bazarında işəgötürənlər tərəfindən böyük ehtiyac duyulan təlimlərin təşkil edilməsidir. Başa düşürük ki, işəgötürənin gözləməyə vaxtı yoxdur. Ona görə qısa-müddətli təlimlərlə əmək bazarında ehtiyac duyulan mütəxəssisləri hazırlamağı qarşımıza məqsəd kimi qoymuşuq. Bu istiqamətdə, əlaqə mərkəzinin təmsilçisi (call center operator), mühafizəçi, İT help desk, avto qaldırıcının idarə edən operator kimi peşələr yeni təlimlər üçün bu ildən etibarən başlanacaqdır.

Peşə təliminin təşviqatı və bu sahədə peşəkarların beynəlxalq səviyyədə təmsil olunması üçün ötən ildən etibarən Azərbaycan "WorldSkills International" təşkilatına üzv olmuşdur. Agentlik bu təşkilatda Azərbaycanı təmsil etidyi üçün ölkədə müxtəlif sektorlar üçün cari ildə bacarıq yarışmaları təşkil etməyi planlaşdırır.

**Hazırda şirkətlər üçün əsas əlaqələndirici şəxs kimdir? Agentlik, yoxsa müstəqil peşə təhsil mərkəzi?**

Agentlik peşə təhsil müəssisələri və işəgötürənlər arasında körpü rolunu oynayır və potensial əməkdaşlıq prosesinə dəstək verir. Bu baxımdan istər Agentlik vasitəsilə, istərsə də bilavasitə peşə təhsil müəssisələrinə müraciət edərək əməkdaşlıq niyyətini paylaşmaq olar. Əlbəttə iri işəgötürən şirkətlər, xüsusilə fərqli bölgələrdə fəaliyyət göstərən biznes subyektləri üçün bu prosesi tənzimləmək qismən çətinləşir, məhz bu səbəbdən belə hallarda Agentlik vasitəsilə əməkdaşlığın qurulması daha əlverişli hesab oluna bilər. Amma qeyd edilənlər heç də müəyyən bir coğrafi ərazidə fəaliyyət göstərən işəgötürənlərin əməkdaşlıq məqsədləri üçün Agentliyə müraciət etməmələri anlamına gəlmir.  Hazırda, müxtəlif sektorlarda fəaliyyət göstərən işəgötürənlərlə yerli səviyyədə uğurlu əməkdaşlıq formatları mövcuddur. Açığı şəxsi fikrim bundan ibarətdir ki, yerli səviyyədə əməkdaşlığın daha konkret yolları və prinsipləri qurularaq daha tez nəticələr əldə etmək mümkündür. Çünki peşə təhsil müəssisələri ölkənin müxtəlif regionlarında yerləşir və bir region üçün işləyən üsul digər yerdə faydalı olmaya bilər. Ona görə biz yerli təşəbbüsləri dəstəkləyirik və onları daha səmərəli və davamlı hesab edirik. Bununla bağlı, Cəlilabad Peşə Liseyi ilə "Woodpecker" şirkəti və Lənkəran Peşə Liseyi ilə "Xəzər Palace Hotel" arasındakı uğurlu əməkdaşlığı misal kimi göstərə bilərəm.

**Pandemiya dövrü həm iqtisadiyyata, həm də təhsil sisteminə güclü təsir göstərdi. Vəziyyəti həll etmək üçün əldə olunan nailiyyətlər haqqında ümumi məlumat verə və bugünkü peşə təhsili tələbələrini işə düzəltmək üçün göstəriləcək səylərə dair fikir bildirə bilərsinizmi?**

Qeyd etmək istərdim ki, bu gün zamanın tələbləri artıq təhsilə fərqli yanaşma tələb edir. Biz həm gələcəyin əmək bazarının trend və tələblərini proqnozlaşdırmalı, gələcək bacarıq və peşələri müəyyən etməliyik. Burada həm təhsil sisteminin kadr hazırlığında çevikliyini təmin etməli və həm də dəyişikliklərin idarəedilməsində islahatlara hazır olmalıyıq. Bunun COVID-19 pandemiyasının xüsusən də, peşə təhsilinin üzərinə qoyduğu çağırış zamanı da şahidi olduq.

Təhsilalanların dərs prosesindən kənar qalmamaları və peşə təhsilinin əlçatanlığını təmin etmək məqsədilə 2020-ci ilin mart ayından başlayaraq videodərslərin çəkilişinə start verildi. Bu prosesdə Təhsil Nazirliyinin resurslarına beynəlxalq tərəfdaşlarımız da (Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti) qoşuldurlar. Peşə təhsili müəssisələrində tədris olunan nəqliyyat, turizm, sənaye, kənd təsərrüfatı, iaşə istiqamətləri və baza modulları üzrə müvafiq səriştələri əhatə edən 300-ə yaxın video dərslər çəkilib və hazırda bu istiqamətdə çəkilişlər davam edir.

Qeyd edim ki, video dərslərin çəkilişində eyni zamanda özəl şirkətlərdən işəgötürənlər də cəlb olunmuşdur. Video dərslər bir sıra ixtisaslar üzrə təhsil alan tələbələrin həm nəzəri, həm də praktiki biliklərinin dərinləşdirilməsinə xidmət edir.

Video dərslərin peşə təhsili sahəsində elektron resurs bazasının təkmilləşməsinə böyük töhvəsi olmuşdur. Belə-ki, hazırlanmış video dərslərdən vizual olaraq gələcəkdə istehsalat təlimi ustaları və ixtisas fənn müəllimləri praktik dərslərdə əyani vəsait kimi istifadə edə biləcəklər. Eyni zamanda peşə təhsili müəssisələrində təhsil alan tələbələr və müəyyən istiqamətlərdə bacarıq və vərdişlərini artırmaq istəyən şəxslər də bunlardan metodik vəsait kimi istifadə edə biləcəklər.

Bununla yanaşı, 2020-ci il ərzində  işəgötürənlərlə birgə düzgün peşə seçimi ilə bağlı keçirilən vebinarlar təşkil edildi və ilk dəfə gerçəkləşdirilən peşə təhsili müəssisələrinə mərkəzləşdirilmiş elektron tələbə qəbulu sistemi yaradıldı.

Bir çox hallarda pandemiya dövründə tətbiq edilən məhdudiyyətlərin peşə təhsili pilləsində həm təhsilalan, həm də təhsilverənlər üçün yeni imkanlar açdığını düşünürəm. Bildiyiniz kimi, artıq peşə təhsili pilləsi üzrə əyani tədris 15 fevral tarixindən qismən bərpa olunub. Ötən dövrdə teorik biliklərlə silahlanan tələbələr artıq praktiki bacarıqların alınması üçün istehsalat təcrübəsinə və praktiki məşğələlərə başlayıblar.

İşəgötürənlərlə əməkdaşlıq pandemiya dövründən əvvəl aktual olduğu kimi indi də öz aktuallığını qoruyub saxlamaqdadır. Pandemiya dövründə bu prosesdə durğunluq olmadığından, işəgötürənlərlə onlayn formatda görüşlər keçirilib və gələcək əməkdaşlıqları qurulub. Ötən il İsmayıllı Peşə Tədris Mərkəzi ilə "İsmayıllı Şərab-2" ASC (Chabiant Winery) arasında Anlaşma Memorandum imzalanıb. Buna əsasən müəssisənin ayırdığı üzüm sahəsində "Üzümçülük və şərab ustası" ixtisasının tələbələrinin dualabənzər peşə təhsili və təlimi yanaşması ilə istehsalat təlimi və təcrübəsi keçmələrinə şərait yaradılıb. İlk dəfə olaraq, İsmayıllı Peşə Tədris Mərkəzi və "İsmayıllı Şərab 2" ASC-nin birgə əməkdaşlığı çərçivəsində şərab istehsalı üçün "PeŞərab" brendinin yaradılması istiqamətində tədbirlər həyata keçirilib.
Qeyd edim ki, bu əməkdaşlıq Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti və Avropa İttifaqının dəstək olduğu layihə çərçivəsində icra edilib. Hazırda məzunlarımızın iş yerində öyrənməsini və məşğulluğunu təmin etmək üçün bir çox tədbirlər həyata keçirilir.

**Yüksək standartda peşə təhsilinin tələblərindən biri onun fəaliyyət və tələbat yönümlü olmasıdır. İslahat aparılmış peşə təhsili və tədrisinin bu tələblərə cavab verməsi necə təmin olunur?**

Əmək bazarının tələbləri öyrənilərək işəgötürənlərin iştirakı ilə yeni təhsil proqramları (kurikulumlar) və modul tədris vəsaitləri hazırlanır, yenilənir və hazırda peşə təhsili müəssisələrində tətbiq olunur. Təhsil proqramlarının (kurikulum) hazırlanması prosesi ilə bağlı özəl sektorun nümayəndələrindən ibarət işçi qrupu yaradılmışdır və müvafiq təlimlər keçirilmişdir. Həmin təlimlərə işəgötürənlər də cəlb olunaraq onlarla birlikdə peşə standartları əsasında təhsil proqramları (kurikulum) və modul dərsliklər hazırlanmışdır. Peşə təhsili üzrə keçən il 145, cari tədris ilində isə 120 ixtisas üzrə səriştə əsaslı təhsil proqramları (kurikulum) hazırlanmış və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilərək peşə təhsili müəsisələrində tətbiq olunmuşdur. 2020/2021-ci tədris ilində uzun müddətdən sonra ilk dəfə olaraq ixtisaslar üzrə dövlət büdcəsi vəsaiti hesabına 96 adda 184 067 ədəd dərs vəsaitinin çap edilməsinə başlanılmışdır. Bununla yanaşı peşə təhsilinin infrastrukturunun yenilənməsi hər il dövlət büdcəsi tərəfindən müvafiq vəsaitlər ayrılır. Artıq bizim hər il regional səviyyədə fəaliyyət göstərəcək yeni peşə təhsil mərkəzlərini tələbələrin və işəgötürənlərin istifadəsinə vermək imkanımız var. Cari ildə Bərdə Peşə Liseyi, növbəti il Cəlilabad Peşə Liseyi, sonradan isə Bakıda, Mingəçevirdə, Lənkəranda yeni müasir mərkəzlərin istifadəyə verilməsi nəzərdə tutulur. Bu mərkəzlər yeni konsepsiya ilə praktik məşğələnin üstünlüyünü təşkil edir və nəzəriyyənin mütləq surətdə praktika ilə bağlığını əsas tutur. Biz də başa düşürük ki, indiki zamanda işəgötürənlərin əsas ehtiyacları bununla bağlıdır. Amma xüsusən də praktik bacarıqlar üzrə istehsalat təlim və təcrübəsinin keçirilməsində işəgötürənlərin sıx qoşulmasını istərdik. Çünki tələbələrimizin iqtisadiyyatın aidiyyatı üzrə müxtəlif sektorlarındakı yeni texnologiyalardan xəbərdar olması üçün işəgötürənlər bu prosesdə iştirak etməlidir.

**Bu səmimi müsahibə üçün təşəkkür edirik!**



# Alman-Azərbaycan Xarici Ticarət Palatası




**TOBIAS BAUMANN**

**İcraçı Direktor**
**AHK Azərbaycan**

+994 12 497 63 06/07
www.aserbaidschan.ahk.de


Müsahibə

Hazırda, cənab Baumann Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK Azərbaycan)  İdarə Heyətinin üzvüdür. O, 2016-cı ildən etibarən Bakıda yaşayır və işləyir, eləcə də Azərbaycanda peşə təhsilinin güclü dəstəkçisidir.

**Alman-Azərbaycan Xarici Ticarət Palatasının məqsədlərini və strukturunu təsvir edə bilərsinizmi?**

Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) 140-dan çox üzv şirkəti ilə Avropanın Azərbaycandakı ən güclü iqtisadi assosiasiyasıdır. Biz Azərbaycanda Almanya iqtisadiyyatını təmsil edirik və fəaliyyətimiz Alman Ticarət və Sənaye Palataları (IHK) və Xarici Ticarət Palatalar (AHK) şəbəkəsi ilə sıx şəkildə bağlıdır.

Bizim əsas məqsədimiz ikitərəfli ticari əlaqələri gücləndirmək və investisiya qoyuluşunu təşviq etməkdir.

Bu məqsədə, AHK Azərbaycan bu sahədə fəaliyyət göstərən şirkətlərə, eləcə də potensial biznes iştirakçılarına təklif etdiyi biznes xidmətləri ilə dəstək göstərir. Biz Azərbaycan bazarında biznesin qurulması üçün alman şirkətlərinə bir sıra xüsusi xidmətlər təqdim edirik, eyni zamanda da alman bazarındakı imkanları araşdırmaqda yerli şirkətlərə dəstək oluruq. Burada nümayəndə heyəti səfərlərinə, tədbirlərə, habelə ticarət sərgilərinin keçirilməsinə göstərdiyimiz dəstəyi xüsusilə qeyd etmək istərdim.

AHK Azərbaycan biznesin qurulmasını asanlaşdıran məlumat paylaşma platforması, eləcə də iqtisadi fəaliyyətin yaxşılaşdırılması istiqamətində konkret təkliflər işləyib hazırlayan yerli şirkətlərin assosiasiyasıdır. Biznes mühiti daxilində sosial qarşılıqlı əlaqəni qorumaq da çox əhəmiyyətlidir. Yaxın gələcəkdə sosial tədbirlərimizi əyani şəkildə keçirməyə davam edəcəyimizə ümid edirik. Burada Oktoberfesti xüsusilə vurğulamaq istərdim.

2020-ci ilin dekabr ayında artıq 5-ci ildir ki, təqdim etdiyimiz ənənəvi Biznes Mühiti Hesabatımızla yəqin ki tanışsınız. Bu hesabatda Azərbaycanda fəaliyyət göstərən beynəlxalq şirkətlərin qavranılması, onların iqtisadi vəziyyəti, davam edən islahatlar prosesindəki irəliləyişi, habelə üzləşdikləri mövcud iqtisadi çətinliklər öz əksini tapmışdır. Palatamız öz üzv şirkətlərinin təmsilçisi rolunu oynayaraq üzvlərimizin maraqlarını həyata keçirir.

İxtisaslı mütəxəssislər və bacarıqlı işçi heyəti yalnız üzv şirkətlərimizin iqtisadi uğurları üçün vacib deyil, həm də Almaniyadan Azərbaycana uzunmüddətli birbaşa xarici investisiyaların cəlb edilməsi üçün əsas amildir.

**Alman-Azərbaycan Xarici Ticarət Palatasının peşə təhsili sahəsində fəaliyyət göstərən müəssisələr üçün hansı konkret təklifləri var?**

Peşə təhsili şirkətlərin uğuru və fəaliyyətlərinin səmərəliliyi üçün böyük əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, sözügedən mövzunu portfelimizə daxil etdik və 2018-ci ildə Peşə Təhsili şöbəsinin rəhbəri Dr. Maqnus Mülleri komandamıza dəvət etdik. O, həm təhsil sistemində, həm də özəl sektorda geniş və böyük təcrübəsi ilə İnsan Resursları sahəsində bu mühüm əhəmiyyətli məsələnin həllinə birbaşa məsuldur.

AHK Azərbaycanın İnsan Resursları və Peşə Təhsili və Təlimi (İR və PTT) İşçi Qrupu çərçivəsində üzv şirkətlər mütəmadi olaraq fikir mübadiləsi aparmaq və aktual mövzuları, tendensiyaları və problemli məsələləri müzakirə etmək imkanı əldə edirlər. Hazırda təcrübə proqramlarının bölüşdürülməsi ilə bağlı çətinliklər mövcuddur ki, İşçi Qrupu da onları mövqe sənədində ifadə etmiş və normativ bazanın təkmilləşdirilməsinə dair konkret təkliflər işləyib hazırlamışdır. Bu sənəddə tənzimləyici bazanın təkmilləşdirilməsi üçün konkret təkliflər də müzakirə olunur [9] və biz, həmçinin, Peşə Təhsili üzrə Dövlət Agentliyi də daxil olmaqla müvafiq inzibati və siyasi qurumlarla olduqca konstruktiv mübadilə aparmaqdayıq.

.

[9] "Mövqe Sənədi", Alman-Azərbaycan Xarici Ticarət Palatası, İnsan Resursları və Peşə Təhsili və Təlim İşçi Qrupu, 2020: https://www.aserbaidschan.ahk.de/mitgliedschaft/arbeitsgruppen/arbeitsgruppe-fuer-personal-und-berufliche-bildung



Aydındır ki, söhbət təkcə yeni əməkdaşların işə götürülməsi deyil, həm də mövcud işçi heyətinin qorunub saxlanması və inkişafından gedir. Bu mənada AHK Azərbaycan şirkətlərə geniş spektrdə ixtisasartırma kursları ilə dəstək göstərir. Biz yalnız beynəlxalq təlimçilərlə birlikdə aktual mövzular üzrə ingiliscə kursların təşkilini uğurla həyata keçiririk. Həmçinin bu mövzuların Azərbaycan dilində tədris edilməsi üçün təşkilatımızın təlim xidməti təminatçıları ilə də əməkdaşlıq edirik.

Biz qeyd etdiyim İnsan Resursları və Peşə Təhsili və Təlimi (İR və PTT) İşçi Qrupunda ayrı-ayrı müəssisələrdə ixtisaslı kadrlara olan konkret ehtiyacları müəyyənləşdirir və əlimizdəki məlumatla müvafiq peşə məktəbi ilə əlaqə yaradır və daha sonra məktəblə müvafiq şirkət arasında görüş təşkil edilməsinə dəstək oluruq. Bu cür əməkdaşlıq əlaqələrini və dialoqu Almaniyanın ikili peşə təhsili sisteminə əsaslanan zəngin təcrübəmiz vasitəsi ilə həyata keçiririk.

Bu nəşr ilə biz tələbata əsasən təlim məktəbləri və şirkətlər arasında əlaqələrin gücləndirilməsinə müsbət töhfə verəcəyimizə ümid edirik.

**Pandemiya vəziyyəti həm iqtisadiyyata, həm də təhsil sisteminə güclü təsir göstərməkdədir. Siz bunun Azərbaycanda özəl sektora təsiri barədə qısaca danışa və bunun təhsil və özəl sektor arasındakı əməkdaşlığa göstərdiyi təsirləri təsvir edə bilərsinizmi?**

Bu çətin zamanda üzvlərimizin ehtiyaclarını anlamaq məqsədi ilə onlarla davamlı şəkildə dialoq aparır və sorğu anketlərimizlə vəziyyəti qiymətləndirməyə çalışırıq. Aydın məsələdir ki, sektorlar bu və ya digər dərəcədə bu təsirə məruz qalır. İT, əczaçılıq kimi bəzi sektorlar böhranı bir fürsətə çevirməyə çalışarkən, turizm və sərgi kimi sahələr bundan daha çox əziyyət çəkir.

Hazırda əksikliyini hiss etdiyimiz üzbəüz görüşlərdir. Bu, həm təhsil sektoruna, həm də iş dünyasına aiddir. Yeni əməkdaşlıqlar qurmaq və layihələrə başlamaq, yalnızca onlayn şəkildə mümkün deyil.

Sağlam tərəfdaşlıq münasibətləri böhrandan sonra da qalıcıdır, bunu peşə təlimi sahəsindəki tərəfdaşlıqlara da aid etmək olar. Alman şirkətləri uzunmüddətli hədəflər güdür və dayanıqlı məhsulların yaradılmasının və uzunmüddətli işgüzar əlaqələr qurulmasının tərəfdarıdırlar. İşçi heyətinin genişləndirilməsi və inkişafı ilə bağlı planlar da İnsan Resursları üzrə uzunmüddətli xarakter daşıyır. Hazırda peşə məktəbinə baş çəkilməsi, laboratoriyalara baxılması, müəllim və direktorlarla söhbətlərin aparılması onlayn görüşlərlə əvəz edilə bilməz.

Biz ümid edirik ki, pandemiya tezliklə bitəcək. Lakin bu, "əvvəlki normal vəziyyət"ə birbaşa keçid olmayacaq. İnanıram ki, bu böhran yenidən düşünmək və yeni imkanlar yaratmaq üçün yaxşı bir fürsət təqdim edir. Sürətlə irəliləyən rəqəmsal dövrün fonunda rəqəmsal texnologiyadan istifadə geniş vüsət aldı. Biz indi Sənaye 4.0 kimi mövzulardan kənara çıxmalıyıq və eyni zamanda dünyanın bərpa olunmayan təbii ehtiyatlarından, məsələn, neftdən daha səmərəli istifadənin yollarını müəyyənləşdirməliyik.

**Bu səmimi müsahibəyə görə Sizə təşəkkürümüzü bildiririk!**

# Şirkət yanaşması ilə Almaniyada ikili (dual) təhsil

İnsan Resurslarının ehtiyacları strateji korporativ planlaşdırmada, uzun müddətli ikili təhsil nəzərə alınmaqla göstərilir. Beləliklə, şirkət ənənəvi vəzifə deyil, təlim yeri təklif edir. Şirkət və müraciət edən təcrübəçi, şərtləri kollektiv müqavilələrdə tənzimlənən, təhsil müqaviləsi barədə razılığa gələrsə, müvafiq peşə ixtisası təklif edən yerli peşə məktəblərindən biri ilə əlaqə saxlanılır. Bundan əlavə, şirkət təcrübəçilik müqavilələrini qeydiyyata alan və idarə edən, lakin hər şeydən əvvəl isə şirkətləri təlim zamanı müşayiət edən regional Sənaye və Ticarət Palatası və ya Sənətkarlıq Palatası ilə əlaqə qurur. Bu çərçivədə, işçilərin təcrübəçilərə daha yaxşı nəzarət etməyi üçün ixtisaslandıran "təlimçi üçün təlim" kurslarından xüsusi şəkildə bəhs edilməlidir.

Təlim planı proqramın əvvəlində təlimçi tərəfindən tərtib edilməlidir. Təcrübəçinin fəaliyyəti şirkətin imkanları daxilində planlaşdırılır. Bu isə peşə vərdişlərinin, bilik və bacarıqların tədrisinin faktiki və müvəqqəti quruluşunu özündə cəmləşdirən və məktəb proqramı ilə əlaqələndirilən təlim çərçivəsi planına əsasən həyata keçirilir: Təcrübəçi nə vaxt hansı şöbəyə təyin olunur? Təlim seminarı nə zaman keçirilməlidir? Peşə məktəbi günləri nə vaxtdır?

Təcrübəçilik peşə hədəfindən asılı olaraq, iki və ya üç il yarım davam edir. Təcrübəçi ümumi təlim vaxtının yarısından azını peşə məktəbində, qalan hissəsini isə şirkətdə keçirir. Yekun imtahan praktiki təcrübəyə malik olan müstəqil imtahan heyətinin iştirakı ilə Palatalar tərəfindən təşkil olunur. Təlimçilər öz təcrübəçilərini imtahan etməməsi şərti ilə imtahan heyətində iştirak edə bilər.

Təlim verən şirkət olma statusu, Almaniyadakı şirkətlərə öz işçi qüvvəsini yüksək ixtisaslı və eyni zamanda çox istiqamətli fəaliyyət göstərən işçilərlə genişləndirmək imkanı verməklə yanaşı, bu vacib sosial məsələyə yüksək səviyyədə bağlılıq nümayiş etdirir.



Xaricdə Alman Dual Təhsil sistemi dünyanın 45 ölkəsində həyata keçirilir [10].

# Növbəti səhifələrin izahatı

Bu təlimatda şirkətlərə tələb olunan peşə sahələrində gənc bacarıqlı mütəxəssisləri harada tapa biləcəkləri göstərilir. Seçilmiş peşə təhsil mərkəzləri və ixtisasları, təcrübə tarixləri və 2021-ci ildə gözlənilən məzunların sayı təqdim olunur.

| İxtisas | | | 2021 |
|---|---|---|---|
| Proqram/ ixtisas adı | Proqramın müddəti | 2021-ci ildə təcrübə tarixləri | Gözlənilən məzun sayı |

Fəal AHK üzv şirkətləri və müvafiq peşə təhsil mərkəzləri arasında tərəfdaşlıq layihələri oxucunu peşə təhsili və təlim icması ilə özünün əlaqə başlatmağa ilhamlandıra bilər.

[10]"Duale Berufsbildung im Ausland", DIHK, 2021: https://www.dihk.de/de/themen-und-positionen/fachkraefte/bildung-international/duale-berufsbildung-im-ausland-25070

# SƏNAYE VƏ İNNOVASİYALAR ÜZRƏ BAKI DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

**Beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyyaclarına hazır rəqabət qabiliyyətli kadrlar hazırlığını həyata keçirən peşə təhsili müəssisəsi.**


**Əlaqə**
İdris Musayev (Direktor)

+994 55 701 77 70, +994 12 562 83 31
Binəqədi rayonu, Koroğlu Rəhimov küç. 76
senaye@vet.edu.az
www.bii.edu.az/
www.facebook.com/bakustateindustryinnovation
www.linkedin.com/company/bsiivec/


Sənaye və İnnovasiya üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi 2019-cu ildə, əmək bazarının tələblərinə cavab verən yüksək ixtisaslı və rəqabətqabiliyyətli kadrların hazırlığı məqsədi ilə açılmışdır. Mərkəz sənaye sahələrində istehsal proseslərində yenilikçi texnologiyalarla işləyə biləcək mütəxəssislər hazırlayır.

Mərkəzin əsas hədəflərindən biri də müasir tələblərə uyğun davamlı peşə təhsili modelinin yaradılmasıdır. Bu məqsədlə mərkəzdə həm istedadları müəyyənləşdirməsi, onların müvafiq sahədə inkişafı üçün şərait yaratmağı və müxtəlif yaş qruplarına aid insanlar üçün ömür boyu təhsil imkanlarını təmin edilməsi nəzərdə tutulur.

Göstərilən hədəflərə çatmaqda Mərkəz sənaye qurumları ilə məqsədyönlü şəkildə əməkdaşlıq edir. Mərkəzdə Koreya ekspertləri tərəfindən hazırlanan və milli təhsil sisteminə uyğunlaşdırılan təhsil proqramları tətbiq olunur. Proqramda 60-70 faiz praktik məşğələlərə əsaslanan metoda xüsusi yer ayrılıb.

Təhsil kompleksi əsas tədris binası, 2 emalatxana, yataqxana, idman meydançası və digər zəruri infrastrukturu özündə cəmləyir. Mərkəzdə fəaliyyət göstərən 2 yataqxananın hər birində 90 nəfər tələbənin yaşaması üçün bütün lazımi şərait yaradılmışdır.

Xarici dil kursları:

| İxtisas | | | 2021 |
|---|---|---|---|
| Avtomatika üzrə usta | 1 il | | 19 |
| Avtomobil diaqnostikası və təmiri | 1 il | | 61 |
| Avtomobil təmiri üzrə tənəkəçi-qaynaqçı | 3 il | 1 aprel – 23 iyun | 19 |
| Avtomobil üzrə elektrik | 3 il | 1 aprel – 23 iyun | 20 |
| Avtomobillərin təmiri çilingəri | 3 il | 1 aprel – 23 iyun | 11 |
| Avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü | 3 il | 1 aprel – 23 iyun | 36 |
| Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru | 1 il | | 19 |
| Elektronika ustası | 1 il | | 19 |
| Genişprofilli dəzgahçı | 3 il | 1 aprel – 23 iyun | 15 |
| İnşaat ustası | 1 il | | 37 |
| Kompüter operatoru | 3 il | 1 aprel – 23 iyun | 16 |
| Mebel ustası | 1 il | | 17 |
| Planer və mühərrik üzrə mexanik | 3 il | 1 aprel – 23 iyun | 17 |
| Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru (CAD/CAM/ CAE) | 3 il | 1 aprel – 23 iyun | 18 |
| Sənayedə quraşdırma işləri üzrə usta | 1 il | | 20 |
| Torna və frezer dəzgahların operatoru | 1 il | | 20 |
| Veb-dizayner və proqram təminatçısı | 1 il | | 48 |
| Veb-dizayner | 1 il | 15 aprel – 16 iyun | 20 |

# "ABŞERON AVTOMOBİL MƏRKƏZİ" MMC

**Kamran Hüseynov**
Baş direktor

Şirkətimiz avtomobillərin satışı və servis xidməti ilə məşğuldur. Avtomobil emalatxanasında təklif etdiyimiz xidmətlərin keyfiyyətini artırmaq məqsədilə gənc tələbələri diler mərkəzimizdə təcrübə keçməyə cəlb etmək üçün Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə əməkdaşlığa başlamışıq. Təlim bitdikdən sonra bu təlimləri müvəffəqiyyətlə keçmiş bir neçə tələbəyə şirkətimizdə iş təklif olunur.

"Abşeron Avtomobil Mərkəzi" MMC Mercedes-Benz markasının Azərbaycandakı rəsmi dileridir. Şirkətimiz 2016-cı ildə təsis edilib. "Abşeron Avtomobil Mərkəzi" MMC-nin rəhbəri Kamran Hüseynovdur.

# "ACTIVE GROUP" MMC



**Elşad Hüseynov**
Təsisçi

Müştərilərimizə keyfiyyətli məhsul təqdim etmək kimi bir vəzifəmiz olduğuna görə, biz hər zaman distribyutoru olduğumuz şirkətlərlə yeniliklər, texniki göstəricilərin təkmilləşdirilməsi kimi məsələlər barəsində fikir mübadilələri aparırıq. Belə ki, şirkətimizin texniki menecerləri daim məhsullarımızın keyfiyyət göstəricilərinə nəzarət edir, mütəmadi olaraq analizləri laboratoriyalara göndərir və istehsalçı şirkətlərlə görüşlər keçirib nəticələrlə bağlı müzakirələr edir. Bu baxımdan "Active Group" şirkəti olaraq hər zaman texniki sahədəki peşəkarların, bilavasitə avtomobil sənayesi ilə əlaqəli peşələrin inkişafında maraqlıyıq.

Dünya avtomobil ehtiyat hissəsi, mühərrik yağları, akkumlyator, test və diaqnostika avadanlıqları, eləcə də qatqı istehsalı bazarında lider olan 50-dən çox brendin Azərbaycandakı rəsmi distribyutoru olan "Active Group", XX əsrin 90-cı illərində kiçik bir biznes fəaliyyəti kimi atılan ilk addımların nəticəsi olaraq artıq 20 ildən artıq təcrübəsilə müştərilərə daim keyfiyyətli həllər təqdim edir. Şirkətin təsisçisi və direktoru Elşad Hüseynovdur.

İstehlakçıların maarifləndirilməsi, onlarla sıx əlaqələrin yaradılması, tələblərin hər zaman cavablandırılması və ən əsası keyfiyyətli məhsul təqdim etməyi öz missiyası olaraq seçən şirkətin devizi də məhz "Keyfiyyət üçün əzmlə" çalışmaqdır.

# "IKMA SERVICES" MMC



**Şahin Eldarov**
Direktor

"IKMA Services" MMC olaraq, biz hər zaman yeni məzunların ixtisaslaşdırılmasına, iş mühitinə hazırlanmasına yüksək töhvə vermişik. Elə bu səbəbdən də, 2020-ci ildə Şirkətin fəaliyyət istiqamətinə uyğun olaraq, texniki təhsil alan tələbə və məzunların təcrübə qazanmaları, işlə təmin olunmaları üçün Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi ilə cəmiyyətimiz arasında memorandum imzalanmışdır. Çox təəssüf ki, fəaliyyətimizə uyğun ixtisaslar Mərkəzdə yeni olduqlarından və pandemiya şəraitində, təcrübə keçmələri üçün fürsət yaranmadığından aktiv şəkildə əməkdaşlıq edə bilməmişik. Lakin, biz tələbələri təcrübə qazanmaları üçün praktiki işlərə cəlb etməyə və mütəmadi olaraq, işlə təmin etməyə maraqlıyıq.

"IKMA Services" MMC 2005-ci ildən fəaliyyətə başlayıb. Şirkət markasının Azərbaycanda rəsmi distribütorudur.

"IKMA Services" Azərbaycan inşaat bazarında yüksək nüfuza malikdir. Şirkət 2005-2010-cu illər ərzində yerli bazarda öz sahəsinin liderinə çevrilməyi bacarıb. Şirkətin gördüyü işlər portfelinə ən bariz nümunə kimi, onun təchiz etdiyi hökumət binalarını, ticarət və biznes mərkəzlərini, yaşayış villalarını göstərmək mümkündür.

"IKMA Services" hər zaman operativliyə, gördüyü işin keyfiyyətinə, quraşdırılması başa çatmış avadanlıqların sonrakı işləmə dövründə zəmanətinə təminat verdiyinə görə fərqlənir. Təsadüfi deyil ki, şirkət bir sıra beynəlxalq sərgilərdə iştirak edib və "UĞUR-2007" və "İLİN ŞİRKƏTİ-2008" , "AZERİ BUSINESS AWARD " milli mükafatlarına layiq görülüb.

# "IMPROTEX MOTORS" MMC



**Bayram Yaqubov**
Baş Direktor

IMPROTEX MOTORS
BMW, MINI və Rolls-Royce avtomobillərinin Azərbaycanda rəsmi idxalçısı

Müştərilərimiz xidmət və məhsulların keyfiyyətinə yüksək qiymət verirlər. Bacarıqlı və motivasiyalı işçi qüvvəmiz hər gün bu keyfiyyət vədinə zəmanət verir. Texniki xidmət mərkəzində müştərilər məsləhətləri birbaşa istehsalçı zavoddan alırlar. Görülən bütün işlərin BMW standartlarına tam cavab verməsi məqsədilə tərəfimizdən mütəmadi olaraq işçilərin bacarıqlarını yüksəldən təlimlər keçirilir.

Uzun müddətə komandamızı genişləndirmək üçün 2019-cu ildə yerli peşə təhsili mərkəzimizlə sıx və etibarlı bir əməkdaşlığa başladıq. Hər il şirkətimiz mexaniki işlər, qaynaq və elektronika sahələrində dörd tələbə qəbul edir. Tələbələr praktiki təcrübə qazanırlar və istedadlı tələbələri kəşf edirik. Bu da mütəmadi olaraq seçilən tələbələrə məzun olduqdan sonra iş yerləri təklif etməyimizlə nəticələnir.

"Improtex Group"un ən mühüm və sürətlə inkişaf edən strukturlarından biri "Improtex Motors" MMC-dir. Yerli avtomobil bazarında ilk rəsmi idxalçı kimi tarixə düşən "Improtex Motors" şirkəti 1998-ci ildə yaradılmış və əsas fəaliyyəti premium sinfi avtomobilləri ilə bağlıdır. BMW, BMW Motorrad, MINI, Rolls-Royce və Yamaha kimi məşhur markaların Azərbaycanda rəsmi və eksklüziv idxalçısıdır.

"Improtex Motors" şirkəti BMW konserninin dünya bazarına təqdim etdiyi hər bir yeni modelini qısa müddətdə Azərbaycan avtomobil bazarında təqdim edir. Bundan başqa, yeni modellərin təqdimatı möhtəşəm ziyafət mərasimi ilə müşayiət olunur. Azərbaycan avtomobil sahəsinin qa-baqcıllarından biri olan və artıq 18 ildir fəaliyyət göstərən Improtex Motors etibarlı şirkət kimi özünü təsdiqləmiş və yüksək nüfuz qazanmışdır.

# Qısamüddətli təlim proqramları

Texnologiyanın sürətli inkişafı və əmək bazarının dəyişən ehtiyacları tədris edilən ixtisasların və peşə bacarıqlarının davamlı təkmilləşdirilməsini tələb edir. İqtisadiyyatımız inkişaf etdikcə, xüsusilə də İKT daxil olmaqla, yeni texnologiyalar və sahələr yarandıqca peşə təhsilində daha çevik təlim modellərinə artan tələbat və maraq var. Keçirilən təlimlərin qısa müddətdə və əmək bazarının xüsusi ehtiyaclarını əhatə etməsi müdavimlərin əmək bazarında uğuruna təsir edən faktorlardandır.

2021-ci ilin mart ayından başlayaraq, Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə müxtəlif peşə təhsili müəssisələrinin nəzdində yeni qısamüddətli təlimlərin icrasına başlanmışdır. Təlimlər əmək bazarının ehtiyacına uyğun hazırlanır və təcrübəli təlimçilər tərəfindən həyata keçirilir. Məqsəd qazanılan bilik və bacarıqların artırılması yolu ilə iştirakçıların karyera imkanlarının artırılmasına və ya karyera yüksəlişinə dəstək olmaqdır.

Təlimlər əsasən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Turizm və Sosial Xidmətlər üzrə Peşə Təhsil Mərkəzi tərəfindən həyata keçirilir:

Təlimlərin siyahısı:

- Əlaqə mərkəzi təmsilçisi
- Avtoyükləyici operator
- Avtomobil diaqnostikası
- İnformasiya texnologiyaları üzrə texniki dəstək
- Şəbəkə inzibatçılığı
- Sistem inzibatçılığı
- Verilənlər bazasının inzibatçılığı
- Veb proqramlaşdırma
- Java proqramlaşdırması
- HTML və CSS
- Mühasibatlıq və 1C
- Vergi uçotu
- Gənc maliyyəçi
- Qaynaqçı
- CNC torna və frezer dəzgahları

Təlimlərə 3000-ə dək şəxs müraciət etmiş və 300-dən çox şəxs seçilərək iştirakçı qismində təlimlərə cəlb edilmişdir. Təlimlər mövcud şəraitə uyğun olaraq, onlayn və əyani məşğələlər formasında keçirilir. İştirakçıların 85%-i Bakı və Abşeron, 15%-i isə digər rayon və şəhərlərdən olan vətəndaşlardır. İl ərzində əmək bazarının dəyişən ehtiyaclarını nəzərə alaraq, bir sıra yeni qısamüddətli təlimlərin keçirilməsi nəzərdə tutulur.

## "OTOKOÇ AZƏRBAYCAN" MMC



**Fətəli Amanov**
Satış Müdiri

AVIS

